


Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# İXRAC İCMALI

İyun 2020

iqtisadiislahat.org
info@ereforms.org

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

**“BİR DƏ Kİ, BİZ SON İLLƏR ƏRZİNDƏ GÖRÜLMÜŞ İŞLƏR APARILMIŞ İSLAHATLAR NƏTİCƏSİNDƏ İQTİSADİ GÜCÜMÜZÜ BÖYÜK DƏRƏCƏDƏ ARTIRMIŞIQ. BİZİM İQTİSADİYYATIMIZ SABİT, DAYANIQLI İQTİSADİYYATDIR.”**

Prezident İlham Əliyevin
1 saylı Gəncə Şəhər Xəstəxanasının
modul tipli infeksion xəstəliklər
korpusunun açılışı - 24.06.2020



“Bir də ki, biz son illər ərzində görülmüş işlər, aparılmış islahatlar nəticəsində iqtisadi gücümüzü böyük dərəcədə artırmışıq. Bizim iqtisadiyyatımız sabit, dayanıqlı iqtisadiyyatdır. Hesab edirəm ki, bu ilin sonuna qədər iqtisadi sahədə problemlər kəskinləşsə də, insanların həyat tərzinə bunun böyük təsiri olmayacaqdır. Heç bir sosial layihə ixtisar edilməyib.

Bu gün mənim Gəncəyə səfərim çərçivəsində açılan və açılacaq obyektlərin sayı onu göstərir. Heç bir sosial layihə ixtisar edilməyib, əksinə, biz 10 modul tipli xəstəxananın tikintisini təmin edirik. Biz məcburi köçkünlər üçün yeni şəhərciklər salırıq. Onlardan biri də Samux rayonundadır. Yeni məktəblər tikilir. Bu gün Gəncədə Mənzil İnşaatı Dövlət Agentliyinin xətti ilə yeni yaşayış kompleksinin tikintisi ilə tanış olmuşam. Orada da məktəb, bağça tikilir. Bütün bunlar dövlət büdcəsi hesabına təmin edilib.”

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 10

2020-ci ilin yanvar-may aylarında Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 256 milyon manatlıq əməliyyat aparmışlar — səh. 14

Azexport.az portalına 2020-ci ilin yanvar-may aylarında 273,9 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur — səh. 16

2020-ci ilin iyun ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 23,7 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir — səh. 19

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2020-ci ilin **yanvar-may ayları** ərzində qeyri-neft sektoru üzrə **721 milyon** ABŞ dolları dəyərində mal **ixrac olunmuşdur**

2020-ci ilin **may ayında** qeyri-neft sektoru üzrə ixrac **172,6 milyon** ABŞ dolları təşkil etmişdir

2020-ci ilin yanvar-may ayları ərzində Azərbaycanın ixracı **6,9 milyard** ABŞ dolları, qeyri-neft sektoru üzrə **721 milyon** ABŞ dolları dəyərində ixrac reallaşdırılıb. Qeyri-neft sektoru üzrə ixrac ötən ilin müvafiq dövrü ilə müqayisədə **8,9 faiz** azalıb.

Bu ilin yanvar-may ayları ərzində Rusiyaya **271 milyon**, Türkiyəyə **144,3 milyon**, Gürcüstana **70,5 milyon**, İsveçrəyə **71,5 milyon** və Çinə **23,6 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2020-cu ilin ilk 5 ayı ərzində Rusiyaya qeyri-neft ixracı 3,6 faiz, İsveçrəyə 26 faiz və Çinə 40.3 faiz artıb.

2020-ci ilin yanvar-may ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında isə pomidor (123.1 milyon ABŞ dolları) birinci, qızıl ((sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda – 64.7 milyon ABŞ dolları) ikinci və qabığı təmizlənmiş meşə fındığı (51 milyon ABŞ dolları) üçüncü olub.

Ümumiyyətlə, 2020-ci ilin ilk 5 ayı ərzində ərzində meyvə-tərəvəz ixracı **236,5 milyon**, pambıq lifi ixracı **49,5 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **31,5 milyon**, kimya sənayesi məhsullarının ixracı **34,4 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **19,5 milyon**, pambıq ipliyi ixracı **9,2 milyon**, alkoqollu və alkoqolsuz içkilərin ixracı **5,7 milyon**, şəkər ixracı **5,9 milyon** ABŞ dolları təşkil edib.

2020-ci ilin may ayında isə qeyri-neft sektoru üzrə ixrac 172.6 milyon ABŞ dolları təşkil edib ki, ötən dövrlə müqayisədə 17,8 faiz azalıb. Bu ilin may ayında qeyri neft-qaz məhsulları ən çox mal Rusiyaya (84,8 milyon ABŞ dolları), İsveçrəyə (23 milyon ABŞ dolları), Türkiyəyə (22,2 milyon ABŞ dolları), Gürcüstana (11,7 milyon ABŞ dolları)və Çinə (5,4 milyon ABŞ dolları) ixrac edilib.

2020-cu ilin may ayında qeyri-neft sektoru üzrə ixracda tomat (pomidor - 49,7 milyon ABŞ dolları) birinci, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda – 21 milyon ABŞ dolları) ikinci, kartof (19,9 milyon ABŞ dolları) üçüncü yerdə qərarlaşıb.

MADE IN AZERBAIJAN

## 2020-Cİ İLİN **yanvar-may aylarında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 əsas ixrac ölkəsi**
## **(2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



# 2020-Cİ İLİN **may ayında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 əsas ixrac ölkəsi (2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



## 2020-Cİ İLİN yanvar-may aylarında İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI İYUN












| Mal | 2020 | 2019 |
|---|---|---|
| Tomat (pomidor) | 123,1 | 104,2 |
| Qızıl | 64,7 | 51,0 |
| Fındıq ləpəsi | 51,0 | 62,0 |
| Pambıq mahlıcı | 48,6 | 68,1 |
| Elektrik enerjisi | 41,0 | 51,9 |
| İlkin formalı polipropilen | 31,9 | 33,6 |
| Kartof | 23,2 | 22,7 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 20,2 | 35,4 |
| Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen | 18,1 | 0,2 |
| Digər | 299,6 | 357,5 |

# 2020-Cİ İLİN **may ayında** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2020 İXRAC İCMALI İYUN

| Mal | 2020 | 2019 |
|---|---|---|
| Tomat (pomidor) | 49,7 | 54,6 |
| Qızıl | 21,0 | 7,9 |
| Kartof | 19,9 | 20,2 |
| Fındıq ləpəsi | 8,5 | 8,3 |
| Elektrik enerjisi | 6,7 | 6,8 |
| İlkin formalı polipropilen | 5,5 | 5,0 |
| Xüsusi kütləsi 0,94-dən çox olan ilkin formalı polietilen | 4,6 | 0,2 |
| Pambıq mahlıcı | 4,3 | 10,2 |
| Metanol (metil spirti) | 4,3 | 4,8 |
| Digər | 48,0 | 86,0 |












## Yanvar - may aylarında ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR (milyon ABŞ dolları ilə)

2020 İXRAC İCMALI İYUN

### 2019

Yanvar
Xurma
**12,6**

Fevral
Elektrik enerji
**19,4**

Mart
Fındıq ləpəsi
**13,7**

Aprel
Tomat (Pomidor)
**24,2**

May
Tomat (Pomidor)
**54,6**

### 2020

Yanvar
Qızıl
**16,3**

Fevral
Pambıq mahlıcı
**19,5**

Mart
Tomat (pomidor)
**19,2**

Aprel
Tomat (Pomidor)
**29,4**

May
Tomat (Pomidor)
**49,7**

# 2

# 2020-Cİ İLİN YANVAR-MAY AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

İxrac icmalı tərəfindən qeyri-neft sektoru üzrə yanvar-may ayları üzrə həyata keçirilən ixracla bağlı həm dövlət, həm də qeyri-dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

Bu ilin yanvar-may ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: “Socar Polymer” MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, “Land Lojistic" MMC, "MKT İstehsalat Kommersiya" MMC, “Fruit Store" MMC, "Sun Food" MMC, "Aqrovest" MMC, "Global Trade Group" MMC, “STDC” MMC və "Baku Steel Company".

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-nin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azərenerji" ATSC, "Azergold" QSC, "Azəralüminium" MMC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC, “Azərtütün Aqrar Sənaye Kompleksi” MMC, Naxçıvan MR Dövlət Energetika Xidməti və “ASK şüşə” MMC.



## 2020-Cİ İLİN **yanvar-may aylarında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **qeyri-dövlət ixracatçı subyektlərin reytinqi (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**




* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisə olduğu üçün qeyri-dövlət ixracatçı subyektlərin siyahısında təmsil olunmuşdur.

# 2020-Cİ İLİN **yanvar-may aylarında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **dövlətə məxsus ixracatçı subyektlərin reytinqi (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**



# 2020-Cİ İLİN **yanvar-may aylarında "Azərkosmos" ASC 19,1 MİLYON** ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR

2020 İXRAC İCMALI İYUN



2020-ci ilin yanvar-may aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın **26 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir.

"Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **90 faizini** təşkil etmişdir. 2020-ci ilin may ayında isə "Azərkosmos" ASC dünyanın **16 ölkəsinə 2,4 milyon** ABŞ dolları dəyərində xidmət ixrac etmişdir.

2020-ci ildə"Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə**




Birləşmiş Krallıq **4,9 mln $**

ABŞ **4,5 mln $**

Fransa **4,0 mln $**

Malayziya **3,9 mln $**

BƏƏ **534 min $**



# 2020-ci ilin **yanvar-may aylarında** xaricilər Azərbaycanda **BANK KARTLARI VASİTƏSİ** ilə **256** milyon manatlıq əməliyyat aparmışlar

Koronaviris (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməmiş, mart ayından başlayaraq bu sahədə ciddi tənəzzülə səbəb olmuşdur. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən 2020-ci ilin yanvar-may aylarında Azərbaycana dünyanın 152 ölkəsindən 563,9 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,9 dəfə az əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Bu dövrdə ölkəmizə gələnlərin 30,2 faizi Rusiya Federasiyası, 27,3 faizi Gürcüstan, 13,2 faizi Türkiyə, 6,7 faiziİran, 2,2 faizi Hindistan, hər birindən 2,1 faiz olmaqla Səudiyyə Ərəbistanı və Ukrayna,1,4 faizi Birləşmiş Ərəb Əmirlikləri, hər birindən 1,3 faiz olmaqla Pakistan, Küveyt və Qazaxıstan, 1,1 faizi Türkmənistan, hər birindən 0,9 faiz olmaqla İraq və Böyük Britaniya, 0,8 faizi Özbəkistan, 0,7 faizi İsrail, 6,4 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur.

Cari ilin yanvar-may aylarında Çindən gələnlərin sayı 5,5 dəfə, Cənubi Koreyadan - 4,4 dəfə, Birləşmiş Ərəb Əmirliklərindən - 4,1 dəfə, Polşadan - 3,8 dəfə, Yaponiyadan - 3,7 dəfə, Böyük Britaniyadan - 3,5 dəfə, Kanadadan və İsraildən - 3,3 dəfə, Macarıstandan - 3,2 dəfə, ABŞ-dan və Fransadan - 3,1 dəfə, Almaniyadan və Niderlanddan - 3,0 dəfə, İtaliyadan - 2,9 dəfə, Malayziyadan və Türkmənistandan - 2,7 dəfə azalmışdır.

Ümumilikdə Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 3,4 dəfə azalaraq 16,2 min nəfər, körfəz ölkələrindən gələnlərin sayı 2,2 dəfə azalaraq 75,3 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 1,9 dəfə azalaraq 205,4 min nəfər olmuşdur.

2020-ci ilin may ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi **24,3 milyon** manat təşkil etmişdir. 2020-ci ilin yanvar-may aylarında isə əcnəbilər bank kartları vasitəsi ilə **256 milyon** manatlıq əməliyyat aparmışlar.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

## AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **bank kartları vasitəsi ilə** APARDIQLARI ƏMƏLİYYATLARIN DƏYƏRİ **(milyon manatla)**

2020 İXRAC İCMALI İYUN

| | 2018 | 2019 | 2020 |
|---|---|---|---|
| Yanvar | 99,8 | 88,3 | 85,2 |
| Fevral | 91,1 | 85,3 | 72,9 |
| Mart | 105,8 | 98,0 | 53,9 |
| Aprel | 109,7 | 103,2 | 19,7 |
| May | 107,3 | 100,9 | 24,3 |
| CƏMİ | 513,7 | 475,7 | 256,0 |

3

# AZEXPORT.AZ PORTALINA 2020-Cİ İLİN YANVAR-MAY AYLARINDA 273,9 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Portala daxil olan İXRAC SİFARİŞLƏRİNİN **ümumi dəyəri** **1,9** **milyard** ABŞ dollarıtəşkil etmişdir

2020-cu ilin yanvar-may ayları ərzində Azexport.az portalına **273,9 milyon** ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olub. 2020-ci ilin may ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **64,7 milyon** ABŞ dolları təşkil edib.

Bu ilin may ayında Azexport.az portalına ən çox ixrac sifarişi pomidor, fındıq, biyan kökü, tütün, yumurta, buğda unu, kartof, yür kökü, çuğundur, kələm, sarımsaq, soğan, şərab, qənnadı məhsulu, metal konstruksiya, boya, çay, nar konsentratı, bal, albalı, meyvə kompotu və s. mallara daxil olub.

2017-ci ilin yanvar ayından 2020-ci ilin 30 may tarixinə kimi (41 ay ərzində) Azexport.az portalına dünyanın 141 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **1,9 milyard** ABŞ dolları təşkil edib.

**Azexport.az** PORTALINA
DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ **(milyon ABŞ dolları ilə)**




Yanvar - **42,1**
Fevral - **60,8**
Mart - **44,8**
Aprel - **61,5**
May - **64,7**

| 2017-ci il ərzində | 2018-ci il üzrə | 2019-cu il | 2020-ci il |
|---|---|---|---|
| **CƏMİ - 475** | **CƏMİ - 514,1** | **CƏMİ - 595,7** | **CƏMİ - 273,9** |



Son **41 ay** ərzindəki sifarişlərin cəmi - **1 858,7**

# 2020-Cİ İLİN **may ayında Azexport.az** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

2020 İXRAC İCMALI İYUN

Pomidor



Fındıq



Biyan kökü



Tütün



Yumurta



Buğda unu



Kartof



Yer kökü



Çuğundur



Kələm



Sarımsaq



Soğan



Xiyar



Şərab



Qənnadı məhsulu



# 4

# 2020-Cİ İLİN İYUN AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 23,7 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLMİŞDİR

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə 2020-ci ilin iyun ayı ərzində hüquqi şəxslər tərəfindən 76 dəfə müraciət daxil olunub. Ümumilikdə 87 ədəd sertifikat (46 ədəd mənşə, 30 ədəd baytarlıq, 7 ədəd Qida təhlükəsizliyi sertifikatı, 4 ədəd CİTES) verilib.

Cari ilin iyun ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə 23.5 (23,483,588.92) milyon ABŞ dolları dəyərində ixrac həyata keçirilmişdir. İyun ayında "Baku Steel Company", "AzərGold", "T. Əhmədov adına AZNAR", "AzərDəri", "Sun Food", "Veysəloğlu Yaycılı Qardaşlar", "Coca-Cola", "Aztol-Alat", "Emre Dericilik Nakliyat Otomotiv İnşaat Kimya Sanayi", "ATENA", "CAMAL", "Milk Pro", "MF Company", "Altın Oya Mobilya Dekarasyon", "Kaspian Tikinti", " "Organic Meat", "Azərtürk Heyvançılıq", "Elif Səbinə", "Azerbaijan Travel Agency" şirkətləri və fiziki şəxslər İsmayılov Asəm, Salamov Rafiq müraciət edərək sertifikat əldə etmişlər. Qeyd olunan hüquqi şəxslər tərəfindən nar, alma, albalı şirələri, narşərab, şokoladlar, əridilmiş bitki yağı, zeytun və günəbaxan yağı, pendir, kərə yağı, qiymətli metallar, dondurma məhsulları, tibbi zəli, qoyun bağırsağı, iri və xırdabuynuzlu heyvanların daxili orqanları, qamış, dərinin sənayedə kəsilmə nəticəsində yığılan faydasız tullantıları, şüşəlifli boru və təhlükəsiz qoşulma keçiricisi, butulka üçün plastik qapaqlar, polad armatur yayması, polad boru, polad məftil, mebel dəstləri, Dağıstan turunun ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən şirkətlər arasında "AzərGold", "Baku Steel Company", "T. Əhmədov adına AZNAR", "ATENA", "Sun Food", məhsullar arasında isə qiymətli metallar, polad armatur yayması, polad boru, meyvə şirələri, pendir, kərə yağı, konservləşdirilmiş ət, əridilmiş yağ ixracı üstünlük təşkil etmişdir. Sertifikat verilən məhsullar 15 ölkəyə- İsveçrə (82%), Rusiya (8%), Gürcüstan (4%), Türkiyə (1%), digər ölkələrə (5%)- (ABŞ, BƏƏ, Dubay, Vyetnam, Fil Dişi Sahili, İraq, Malayziya, Ukrayna, Çin, Honkonq, İsrail) ixrac edilmişdir.

Bu ilin iyun ayında AQTA-dan 10 subyekt qeydiyyatdan keçmişdir. Cari ilin iyun ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə 70,1 (70,106) min ABŞ dolları dəyərində idxal fitosanitar icazəsi üçün müraciətlər daxil olmuşdur. Sertifikat alan şirkətlər arasında "Binə Agro", "Agro Alliance", "KDYLOGİSTİC" şirkətləri var.

# 2020-Cİ İLİN **iyun ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN **ixracın statistikası (milyon ABŞ dolları ilə)**






# CARİ İLİN **İYUN AYINDA** "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ** BÖLGÜSÜ (%)

İSVEÇRƏ
**82,0%**

RUSİYA
**8,0%**

GÜRCÜSTAN
**4,0%**




TÜRKİYƏ
**1,0%**

DİGƏR
**5,0%**

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**


AZ 1073, Bakı ş., Yasamal r., Landau küç., 16
16, Landau str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Ландау, 16

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az

/iqtisadiislahat

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi






Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.



iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org


